

Milli azadlıqdan şirin nemət yoxdur!

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə baş sağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirəm.

İLHAM ƏLİYEV

# Azərbaycanda matəm elan edildi

Bax səh. 3




YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
26 dekabr 2024-cü il, cümə axşamı
№ 239 (6825)
Qiyməti 60 qəpik



Bax səh. 2

# İlham Əliyev: Məsələ tam araşdırılmalıdır

## YAP Mərkəzi Aparatı Aktau yaxınlığında baş vermiş təyyarə qəzası ilə əlaqədar başsağlığı verib

**"Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbərini böyük üzüntü ilə qarşıladıq.**
**Faciədə həyatını itirənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirik.**

**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı**

# Sülh yolunda: qətiyyət! Və mövqesizlik...

Bax səh. 5

## 26 dekabr 1991-ci il...

Azərbaycan dövləti və xalqı tarixi ədaləti bərpa edərək ərazi bütövlüyümüzü və suverenliyimizi təmin edib. Xalqımız bu sevinci 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında Qarabağda keçirilən bir günlük antiterror tədbiri sayəsində yaşayıb.

Həmin vaxtlaradək isə hər il işğal günlərini qeyd edirdik. Artıq Azərbaycanın ərazi bütövlüyü bərpa olunsa da, işğal tarixləri heç vaxt unudulmamalı, gələcək nəsillərə çatdırılmalıdır. Məhz bu gün işğal tarixlərindən birinin ildönümüdür. Belə ki, 26 dekabr 1991-ci ildə Xankəndi şəhəri ermənilər tərəfindən işğal olunub və...

Tarixi mənbələrə əsasən, Xankəndi XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının başçılarının - xanların istirahəti üçün salınıb. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın xanımı Pəricahan bəyimə hədiyyə olunub.

Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çox sayda erməni ailəsinin Qarabağda, o cümlədən də Xankəndidə yerləşdirilməsinə baxmayaraq, yaşayış məntəqəsinin tarixi adı uzun müddət saxlanılıb. SSRİ dövründə Xankəndidə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da güclənib, şəhərdə erməni ailələrinin sayı süni surətdə artırılıb. 1923-cü il iyulun 7-də sovet hakimiyyəti tərəfindən Azərbaycanın tərkibində mərkəzi şəhəri Xankəndi olan...

Bax səh. 4

## Fransa kəşfiyyatçısından etiraf

Fransa öz əsarətində saxladığı xalqların suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını dövlət siyasətinə çevirib. Özünü demokratiya və insan hüquqlarının təminatçısı kimi bəyan edən Paris neokolonializmi davam etdirməklə dünyada ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa müstəqillik uğrunda mübarizə aparan xalqların tələblərinə məhəl qoymur.

Fransız imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib. Yerli xalqlar iqtisadi, siyasi və mədəni təzyiqə məruz qalıblar. Artıq bir sıra xalqlar Fransanın müstəmləkəçiliyinə qarşı mübarizəyə qalxıblar. Afrikada da bu proses genişlənməkdədir. Fransanın təsir dairəsində olan Qərbi Afrika Dövlətləri İqtisadi Birliyinin (ECOWAS) sıraları da seyrəlməkdədir. Belə ki, Mali, Burkina-Faso və Niger ECOWAS-ı tərk etmək barədə qərarlarının qəti olmasını bir daha təsdiqləyib və təşkilatın onlara yenidən düşünmək üçün verdiyi 6 aylıq möhləti rədd ediblər. Onlar bunu sabitliyi pozmağa xarici cəhd hesab ediblər...

Bax səh. 4

## Tbilisi küçələrində Soros izi...

Qonşu və dost Gürcüstanda son iki ildə "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsinin müzakirələri və qəbulu fonunda başlayan müxalifət-iqtidar qarşıdurmaları bir qədər bundan əvvəl yekunlaşan parlament və prezident seçkilərindən sonra daha da gərginləşib. Xüsusilə də hakimiyyət daxilində parçalanma diqqət çəkir. Milli qanunvericiliyə əsasən səlahiyyət müddəti dekabrın 29-da bitəcək prezident Salome Zurabişvili parlament və prezident seçkilərinin nəticələrini tanımır və özünü ölkədə yeganə legitim institut sayır. O, dekabrın 29-dan sonra da Prezident Sarayında qalıb fəaliyyətini davam etdirəcəyini bildirir.

Gürcüstandakı qarşıdurmaları yalnız milli səviyyədə cərəyan edən siyasi proseslər kimi səciyyələndirmək doğru olmazdı. Siyasi böhrana qədər uzanan hadisələr əslində kollektiv Qərbin Cənubi Qafqaz siyasətindən qaynaqlanır. Qərb bu coğrafiyada qonşu dövlət olan və qlobal güc qismində çıxış edən Rusiyanın mövqeyini zəiflətməklə özünün daha geniş mövcudluğuna nail olmaq istəyir. Vaşinqton, Brüssel və Paris bu planı milli dövlətlər üzərindən reallaşdırmaq niyyətindədir. Təbii ki, öz siyasətində müstəqillik və suverenlik prinsiplərini önə çəkən Azərbaycan Qərbdən gələn diktələri qəbul etmiir. Ölkəmizin siyasi rəhbərliyi qəti şəkildə bildirib ki, Azərbaycan heç vaxt qonşu dövlətlərə qarşı...

Bax səh. 7

## Paşinyanın "B" planı...

2025-ci ilin astanasında Cənubi Qafqaz üçün ən mühüm perspektiv sülhdür. Bayden administrasiyasının kölgəsinə sığınıb, Fransanın destruktiv oyunlarına alət olaraq bu günə qədər sülhdən yayınan Ermənistan isə artıq dalana dirənib - yeni dövrdə İrəvanın manipulyasiya imkanları demək olar ki, yoxdur. Məhz bu səbəbdəndir ki, Ermənistanın baş naziri Nikol Paşinyan "məsuliyyətin bölüşdürülməsi" üçün hətta özünün əsas rəqiblərini, revanşist komandanın üzvlərini "debata" çağırır.

Belə ki, Paşinyan Ermənistanın keçmiş prezidentləri ilə canlı debatlar formatında dediklərini əsaslandırmağa hazır olduğunu bildirib. "Yaxşı ki, keçmiş prezidentlər öz nümayəndələri vasitəsilə "Dağlıq Qarabağ" üzrə danışıqlar prosesi ilə bağlı mənim yazıma cavab verdilər. Amma mən nümayəndələrin arxasında gizlənmirəm. Məncə, onların da gizlənməməsi düzgün olardı. Mənim yazdıqlarımı mübahisələndirən prezidentlərin reaksiyasını gözləyirəm", - Paşinyan yazıb.

Xatırladaq ki, Paşinyan sosial şəbəkə hesabında 1994-cü ildə imzalanan atəşkəsdən sonra bütün danışıqların keçmiş "Dağlıq Qarabağ"ın Azərbaycanın nəzarətinə qaytarılması istiqamətində getdiyini bildirmişdi. O vurğulamışdı ki, Ermənistan əvvəlcədən Qarabağı nə "müstəqil dövlət" kimi tanımayıb, nə də öz daxilində ona hansısa bir perspektiv formalaşdırmayıb.

İndiki halda vəziyyət demək...

Bax səh. 7




# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il dekabrın 25-də Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qəza nəticəsində həlak olanların ailələrinin kədərinə şərik olaraq **qərara alıram:**

2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasının ərazisində matəm elan edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2024-cü il**




# İlham Əliyev: Məsələ tam araşdırılmalıdır

## Prezident təyyarə qəzası ilə bağlı müşavirə keçirib

Xəbər verdiyimiz kimi, Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib.

AZƏRTAC xəbər verir ki, təyyarə endikdən dərhal sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirib.









Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib:

- Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyirəm. Onların ailələrinə, yaxınlarına Allahdan səbr diləyirəm, başsağlığı verirəm. Bu, böyük faciədir, Azərbaycan xalqına böyük faciə üz vermişdir.

Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə - Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda, Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı-Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq.

Qəzada həlak olanların və onların yaxınlarının acısını çəkərək, həlak olanlara Allahdan bir daha rəhmət, yaralananlara şəfa, həlak olanların, yaralananların yaxınlarına, doğmalarına səbr diləyirəm. Sağ olun.






Türkiye Cumhuriyeti Dışişleri Bakanlığı — Republic of Türkiye Ministry of Foreign Affairs

**Kazakistan'da Meydana Gelen Uçak Kazası Hk.**

**No: 263** **25 Aralık 2024**

Bakü-Grozny seferini yapan bir yolcu uçağının bu sabah Kazakistan'ın Aktau şehri yakınlarında düşmesinden dolayı derin üzüntü duyuyoruz.

Bu elim kazada hayatını kaybedenlere Allah'tan rahmet, yakınlarına başsağlığı, yaralananlara acil şifa diliyoruz.

Bu zor günlerinde Azerbaycanlı ve Kazakistanlı kardeşlerimize her türlü desteği vermeye hazırız.

## Rusiya Prezidenti MDB sammitinin iştirakçıları adından Aktauda təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib



Rusiya Prezidenti Vladimir Putin Sankt-Peterburqda MDB-yə üzv dövlətlərin dövlət başçılarının qeyri-rəsmi görüşünü açaraq Aktauda baş verən təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasının Prezidenti sammit iştirakçıları adından həlak olanların ailələrinə və bütün xəsarət alanlara başsağlığı verib.

"Təyyarə qəzaya uğrayıb, ölənlər var, çoxlu yaralılar var. Sizin adınızdan həlak olanların ailələrinə və bütün zərərçəkənlərə başsağlığı vermək istəyirəm. Onların sağalacağına ümid edək", - deyə Rusiya lideri bildirib.

V.Putin vurğulayıb ki, Qazaxıstan Prezidenti ilə razılığa əsasən, Rusiya Fövqəladə Hallar Nazirliyinin tibb işçiləri və lazımi əlavə avadanlıqlar olan təyyarəsi Aktauya uçur. "Mən səhər saatlarında İlham Heydər oğlu Əliyevlə də danışmışam, o, təyyarə Azərbaycan aviaşirkətinə məxsus olduğu üçün Bakıya qayıtmağa məcbur olub", - deyə Rusiya Federasiyasının Prezidenti qeyd edib.

# Azərbaycanda matəm elan edildi

## AZAL-ın təyyarəsi qəzaya uğradı...
### Dünya liderləri Azərbaycana başsağlığı verdi

Xəbər verildiyi kimi, dekabrın 25-də Azərbaycan Hava Yollarına (AZAL) məxsus Bakıdan Qroznıya uçan sərnişin təyyarəsi Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. "Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi ilkin məlumata görə, quş sürüsü ilə toqquşma nəticəsində qəza enişi edib.

Aviaşirkətdən bildirilib ki, təyyarənin göyərtəsində 62 sərnişin olub. İlkin məlumata görə, onlardan 37 nəfər Azərbaycan vətəndaşı, 16 nəfər Rusiya vətəndaşı, 6 nəfər Qazaxıstan vətəndaşı, 3 nəfər Qırğızıstan vətəndaşıdır. Sərnişinlərdən başqa, hava gəmisində 5 nəfərdən ibarət ekipaj heyəti də yer alıb.

## 28 nəfər tibb mərkəzinə yerləşdirilib...

Qeyd edək ki, AZAL-a məxsus təyyarənin Aktauda qəza enişi etməsindən sonra hadisə yerinə Qazaxıstan Fövqəladə Hallar Nazirliyinin 52 nəfərlik xilasetmə personalı və 11 xüsusi texnika cəlb olunub. Hadisə yerinə çatan xilasetmə qrupları təyyarənin yanmasını müşahidə ediblər və dərhal yanğınsöndürmə əməliyyatlarına başlayıblar. Qazaxıstan Fövqəladə Hallar Nazirliyinin (FHN) qüvvələri Aktauda təyyarənin qəza enişi etdiyi yerdə yaranan yanğını tam şəkildə söndürüblər.

Qəza nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alan 28 nəfər tibb müəssisələrinə yerləşdirilib. Qazaxıstan Səhiyyə Nazirliyinin məlumatına əsasən, xəsarət alanlara xəstəxanalarda bütün zəruri tibbi yardım göstərilib. Hadisə yerinə 23 təcili tibbi yardım briqadası səfərbər edilib. Xəstələrə yerində xidmət göstərilməsi üçün Astanadan Aktauya cərrah və travmatoloqlardan ibarət mütəxəssis briqadası ilə tibbi aviasiya təyyarəsi yola salınıb.

Qəza ilə bağlı üç qaynar xətt yaradılıb. Qaynar xəttlərdən biri Komanda Mərkəzində, ikisi isə Aktau şəhərində fəaliyyət göstərəcək.

## İlham Əliyev səfərdən dərhal geri döndü...

Dünən Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlət başçısı dərhal geri dönmək barədə tapşırıq verib. Bu barədə Prezidentin Mətbuat Xidmətinin məlumat yayıb. Məlumatda bildirilir ki, təyyarədə olarkən dövlət başçısı tərəfindən qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına lazımı tapşırıqlar verib.

Baş vermiş təyyarə qəzası ilə əlaqədar məsələlər dövlət başçısının nəzarəti altındadır.



## Dövlət komissiyası yaradıldı, nümayəndə heyəti Qazaxıstana getdi...

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün dövlət komissiyası yaradılıb. Baş nazir Əli Əsədovun sədrlik etdiyi dövlət komissiyasına Baş nazirin müavini, müxtəlif nazirlər, komitə sədrləri, Baş prokuror, DTX rəisi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin direktoru daxildir.

Məlumata görə, qəza enişi ilə bağlı hadisəni araşdırmaq üçün Prezident İlham Əliyevin tapşırığı ilə dövlət orqanlarının nümayəndələrindən ibarət heyət Qazaxıstana gedib.

## Prezident və Birinci vitse-prezident başsağlığı verdi...

Azərbaycan Prezidenti İlham Əliyev Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib. Dövlətimizin başçısı bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda deyilir: "Azərbaycan Hava Yolları" şirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirəm".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Aktau yaxınlığında baş verən təyyarə qəzası ilə bağlı paylaşım edib. Paylaşımda bildirilib: "Aktau yaxınlığında təyyarə qəzası nəticəsində insanların faciəli şəkildə həlak olması xəbəri məni dərindən sarsıtdı. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, onlara güc və səbir diləyirəm. Yaralananların tezliklə şəfa tapmasını arzulayıram. Uca Allah xalqımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!".

Qeyd edək ki, Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.



## Cinayət işi açıldı, ombudsman həmkarı ilə danışdı...

Qeyd edək ki, "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin Aktauda qəzaya uğraması faktı ilə bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 262.3 (hava nəqliyyatının hərəkət təhlükəsizliyi və istismarı qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) və 314.3-cü (səhlənkarlıq iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb. Qurumun mətbuat xidmətindən bildirilib ki, cinayət işinin istintaqı ilə bağlı Baş Prokurorluqda yaradılmış istintaq qrupunun üzvləri Baş prokurorun müavini Elmar Camalovun rəhbərliyi ilə Qazaxıstan Respublikasına ezam olunublar. Habelə, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən iş üzrə müvafiq istintaq və digər zəruri prosessual hərəkətlərin icra olunması məqsədilə Qazaxıstan Respublikasının Baş Prokurorluğuna Beynəlxalq hüquqi yardım haqqında vəsatət göndərilib. Qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumları ilə birgə tədbirlər icra olunur.

Baş Prokurorluq təyyarə qəzası nəticəsində həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralananların tezliklə şəfa tapmasını arzulayıb.

Bundan başqa, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Qazaxıstan Respublikasının İnsan hüquqları üzrə müvəkkili Artur Lastayev ilə əlaqə saxlayıb, Aktau şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində həyatını itirən və müalicəyə ehtiyacı olan şəxslərlə bağlı zəruri tədbirlərin görülməsi üçün məsələnin diqqətdə saxlanılmasını xahiş edib. Ombudsman Aparatının mətbuat xidmətinin məlumatına görə, birbaşa fasiləsiz təmasın yaradılması məqsədilə Qazaxıstan və Azərbaycan Ombudsman təsisatlarının əməkdaşlarından ibarət işçi qrupu yaradılıb və zəruri məlumatların bölüşülməsi təmin olunub.

## Tokayev də komissiya yaratdı...

Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev də təyyarə qəzasının araşdırılması üçün xüsusi komissiyanın yaradılmasına göstəriş verib. Bildirilir ki, qəzanın səbəblərini araşdırmaq məqsədilə qurulacaq komissiyaya Baş nazirin müavini Yerlan Bozumbayev rəhbərlik edir. Komissiya qəzanın başvermə səbəblərini müəyyənləşdirmək üçün tədbirlər görür.



## Türkiyə XİN və TDT bəyanat yaydı...

Aktauda baş vermiş təyyarə qəzası ilə bağlı Türkiyənin Xarici İşlər Nazirliyi bəyanat yayıb. Bəyanatda bildirilir ki, Bakı-Qroznı səferini həyata keçirən sərnişin təyyarəsinin bu səhər Qazaxıstanın Aktau şəhəri yaxınlarında qəzaya uğramasından dərin kədər hissi keçirirk: "Bu faciəvi hadisədə həyatını itirənlərə Allahdan rəhmət, ailələrinə başsağlığı, yaralılara isə təcili şəfa diləyirik. Bu çətin günlərində azərbaycanlı və qazaxıstanlı qardaşlarımıza hər cür dəstəyi verməyə hazırıq".

Təyyarə qəzası ilə bağlı Türk Dövlətləri Təşkilatı da bəyanat yayıb. Bəyanatda bildirilir ki, Bakı-Qroznı səferini həyata keçirən "Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında faciəvi şəkildə qəzaya uğramasından dərindən kədər hissi ilə qarşıladıq. Həyatını itirənlərin ailələrinə başsağlığı, qəzadan sağ xilas olanlara şəfa diləyirik. "Bütün düşüncə və dualarımız bu faciədən təsirlənən qardaşlarımızla birdir. Bu kədərli zamanda, təsirlənən bütün dövlətlərin xalqlarına səbir və başsağlığı diləyirik", - deyə bəyanatda qeyd olunur.

## Dünya liderləri başsağlığı verdi...

Prezident İlham Əliyev təyyarədə olarkən Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edib. Telefon danışığı əsnasında Prezident İlham Əliyev Azərbaycan Hava Yolları şirkətinə məxsus Bakı-Qroznı istiqamətində uçan sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edə bilməyəcəyini və geri dönmək haqqında qərar qəbul etdiyini bildirib.

Dövlət başçıları sıralarında Azərbaycan, Rusiya və digər ölkələrin vətəndaşlarının yer aldığı təyyarə qəzası ilə əlaqədar bir-birilərinə və həyatını itirən şəxslərin ailə üzvlərinə və yaxınlarına başsağlıqlarını ifadə edib və xəsarət alanların tezliklə şəfa tapmasını diləyiblər.

Eləcə də, dünya liderləri AZAL-ın Bakı-Qroznı reysini həyata keçirən təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Azərbaycana başsağlığı veriblər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Serbiya Prezidenti Aleksandar Vuçiç, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Belarus Prezidenti Aleksandr Lukaşenko, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, İran Prezidenti Məsud Pezeşkian, Bolqarıstan Prezidenti Rumen Radev, Pakistanın Baş naziri Şahbaz Şərif, Prezident Asif Əli Zərdari, Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd Al Tani, Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik, Türk Dövlətləri Təşkilatı, Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov, həmçinin Səudiyyə Ərəbistanı hökuməti, bir sıra dövlət və hökumət rəsmiləri, bir sıra ölkələrin Xarici İşlər nazirlikləri, dost dövlətlərin parlament sədrləri, həmçinin Azərbaycandakı səfirlikləri, beynəlxalq təşkilatların nümayəndələri təyyarə qəzası nəticəsində həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralıların tezliklə sağalmalarını diləyiblər

# 26 dekabr 1991-ci il...

## Həmin gün Xankəndi işğal olunsa da, tarixi ədalət bərpa edildi

Azərbaycan dövləti və xalqı tarixi ədaləti bərpa edərək ərazi bütövlüyümüzü və suverenliyimizi təmin edib. Xalqımız bu sevinci 2020-ci ildə 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabrında Qarabağda keçirilən bir günlük antiterror tədbiri sayəsində yaşayıb.

Həmin vaxtlaradək isə hər il işğal günlərini qeyd edirdik. Artıq Azərbaycanın ərazi bütövlüyü bərpa olunsa da, işğal tarixləri heç vaxt unudulmamalı, gələcək nəsillərə çatdırılmalıdır. Məhz bu gün işğal tarixlərindən birinin ildönümüdür. Belə ki, 26 dekabr 1991-ci ildə Xankəndi şəhəri ermənilər tərəfindən işğal olunub və...

### Xankəndinin tarixi...

Tarixi mənbələrə əsasən, Xankəndi XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının başçılarının - xanların istirahəti üçün salınıb. Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın xanımı Pəricahan bəyimə hədiyyə olunub.

Türkmənçay müqaviləsindən sonra İran və Türkiyədən çox sayda erməni ailəsinin Qarabağda, o cümlədən də Xankəndidə yerləşdirilməsinə baxmayaraq, yaşayış məntəqəsinin tarixi adı



uzun müddət saxlanılıb. SSRİ dövründə Xankəndində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da gücləndi, şəhərdə erməni ailələrinin sayı süni surətdə artırılıb. 1923-cü il iyulun 7-də sovet hakimiyyəti tərəfindən Azərbaycanın tərkibində mərkəzi şəhəri Xankəndi olan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. 6 oktyabr 1923-cü ildə ermənilərin müraciəti nəzərə alınaraq Xankəndinin adı dəyişdirilərək azərbaycanlılara qarşı soyqırımı törətmiş cinayətkar Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılıb. Muxtar vilayətdə rəhbər vəzifələrə ermənilər irəli çəkilib. Keçmiş SSRİ dövründə Xankəndidə yaşayan azərbaycanlılar tədricən buradan didərgin salınıblar. 1988-ci il hadisələri başlayanda Xankəndidə erməni əhalisi azərbaycanlılardan çoxluq təşkil edirdilər. Həmin vaxt azərbaycanlıların sayı təxminən 15 min civarında idisə, ermənilər 40 min nəfərədək "artmışdılar".

1988-89-cu ilda Xandəndi artıq erməni separatizminin mərkəzinə çevrilmişdi. Keçmiş ittifaqda rəhbər dairələrin dəstəyi ilə güclənən erməni separatçıları sonuncu azərbaycanlıları 26 dekabr 1991-ci ildə Xankəndidən silah gücünə çıxarmışdılar.

### Xankəndini "erməniləşdirmək" planı iflasa uğradı

Xatırladaq ki, Xankəndinin baş planı hələ sovet dövründə Heydər Əliyevin rəhbərliyi ilə təsdiqlənib və Azərbaycan SSR tərəfindən şəhərdə geniş tikinti işləri aparılıb. Amma işğaldan sonra şəhərin bütün mənzərəsi pozulub, baş plana uyğun olmayan yöndəmsiz binalar tikilib. Məsələn, bunlardan biri "Artsax parlamenti"nin binası adlanırdı. Binanın açılışı keçmiş separatçı rejimin elan olunması-



nın 16-cı ildönümü günü, yəni 2007-ci il sentyabrın 2-də olub.

İşğal illərində ucaldılan digər bir bədnam tikili "veteranlar binası" və yaxud "Artsaxı azad etmiş döyüşçülər ittifaqının binası" adlandırılırdı. Xankəndi şəhərinin mərkəzi meydandakı "veteranlar binası"nın açılışı 2013-cü il mayın 8-də baş tutub. Bu tarix, əlbəttə ki, təsadüfi seçilməmişdi. Şuşa məhz 1992-ci il mayın 8-də işğal olunmuşdu.

Lakin Azərbaycan dövləti və xalqı bu işğalla heç vaxt barışmadı. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhəri Rusiya sülhməramlılarının nəzarətinə keçmişdi. Sülhməramlıların məsuliyyət zonasında olsa da, erməni separatçıları davamlı olaraq hərbi təxribatlara əl atırdılar. Buna görə də, Azərbaycan Ordusu 2023-cü ilin 19-20 sentyabrında lokal antiterror tədbiri keçirərək Qarabağdakı separatçı rejimi diz çökdürdü. Xalqımıza qarşı qətliamlar törətmiş hərbi cinayətkarlar isə həbs olunaraq Bakıya gətirildilər. Ötən il oktyabrın 15-də isə Prezident İlham Əliyev Xankəndi şəhərində üçrəngli bayrağımızı ucaltdı. 8 noyabrda isə şəhərdə Zəfər Gününə həsr olunmuş təntənəli hərbi parad keçirildi.

### Xankəndinin tarixi-milli siması özünə qaytarılır

Hazırda işğaldan azad edilmiş digər ərazilərimiz kimi, Xankəndi də abadlıq-quruculuq meydanına çevrilib. Xankəndinin tarixi-milli siması özünə qaytarılır. Artıq işğal illərində şəhərin simasına yamaq edilən binalar, saxta simvollar sökülüb. Qarabağda suverenliyimizin bərpasından sonra saxta simvollardan təmizlənən tikililərdən biri də Xankəndi şəhər stadionu oldu. Buradan qondarma bayrağın rəngləri ilə bəzədilmiş oturacaqlar sökülərək yeniləri ilə əvəzləndi və digər zə-



ruri işlər görüldü. Açılışa hazırlanan Xankəndi şəhər stadionunda 21 dekabr 2023-cü ildə Azərbaycan kubokunun 1/8 finalında "Qarabağ" və MOİK komandaları üz-üzə gəldilər. Yenidən qurulan stadionda topa ilk ayaq vuran isə Prezident İlham Əliyev oldu...

Hazırda şəhərdə abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Artıq bu il Xankəndidə Qarabağ Universiteti fəaliyyətə başlayıb. Burada ilk mərhələdə təxminən 1200 tələbə təhsil alır. Eləcə də, şəhərdə orta məktəb, istehsal müəssisəsi, iaşə obyektləri, hotel və s. fəaliyyət göstərir. Beləliklə, Xankəndidən olan azərbaycanlıların da üç onillik ərzində yaşadıqları məşəqqətli qaçqınlıq və məcburi köçkünlük dövrü sona çatıb. Böyük Qayıdış proqramına uyğun olaraq onların doğma şəhərə köçürülməsi həyata keçiriləcək.

*Nardar BAYRAMLI*

# Fransa kəşfiyyatçısından etiraf

Fransa öz əsarətində saxladığı xalqların suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını dövlət siyasətinə çevirib. Özünü demokratiya və insan hüquqlarının təminatçısı kimi bəyan edən Paris neokolonializmi davam etdirməklə dünyada ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa müstəqillik uğrunda mübarizə aparan xalqların tələblərinə məhəl qoymur.




## Fransa ECOWAS-da da iflasa uğrayır

Fransız imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib. Yerli xalqlar iqtisadi, siyasi və mədəni təzyiqə məruz qalıblar. Artıq bir sıra xalqlar Fransanın müstəmləkəçiliyinə qarşı mübarizəyə qalxıblar. Afrikada da bu proses genişlənməkdədir. Fransanın təsir dairəsində olan Qərbi Afrika Dövlətləri İqtisadi Birliyinin (ECOWAS) sıraları da seyrəlməkdədir. Belə ki, Mali, Burkina-Faso və Niger ECOWAS-ı tərk etmək barədə qərarlarının qəti olmasını bir daha təsdiqləyib və təşkilatın onlara yenidən düşünmək üçün verdiyi 6 aylıq möhləti rədd ediblər. Onlar bunu sabitliyi pozmağa xarici cəhd hesab ediblər.

BƏƏ-nin "Əl-İttihad" qəzetinin informasiya mərkəzi verir ki, adıçəkilən dövlətlərin təşkilatı tərk etməsi barədə qərar gələn ilin yanvarında qüvvəyə minəcək. Nizamnaməyə görə, dövlət qərarını elan etdikdən 1 il sonra təşkilatı tərk edə bilər. Lakin 15 dövlətin üzv olduğu ECOWAS bu müddəti keçid dövrü hesab edir və təşkilatın qapılarını hələ də açıq saxlamaq istəyir. Qeyd edilməlidir ki, bu ilin yanvar ayında adıçəkilən 3 dövlət Sahel Dövlətləri Alyansı çərçivəsində birləşdiklərini və ECOWAS-ı tərk edəcəklərini elan ediblər. Onlar ECOWAS-ı keçmiş müstəmləkəçi Fransanın istifadə etdiyi alət sayırlar. Beləliklə, Fransanın ECOWAS müstəvisində də həyata keçirdiyi siyasət iflasa uğramaqdadır.

## Bakı Təşəbbüs Qrupu fəaliyyətini genişləndirir

Qeyd edək ki, ötən ay Bakıda keçirilən COP29 çərçivəsində də Bakı Təşəbbüs Qrupu Fransanın Afrikadakı müstəmləkə siyasətinə qarşı tədbirlər keçirmişdi. Məsələn, "Müstəmləkəçiliyin Afrikada investisiya perspektivlərinə mənfi təsirləri" mövzusunda keçirilən tədbirdə Afrikada kolonial keçmişin yaratdığı dərin sosial-iqtisadi problemlər və onların qitədə investisiya imkanlarına mənfi təsiri müzakirə olunmuşdu. Tədbirdə Fransanın Afrikadakı keçmiş müstəmləkələrindən, digər fransız dənizaşırı ərazilərindən nümayəndələr iştirak ediblər. Çıxışlarda müstəmləkəçilikdən miras qalan qeyri-bərabərlik, resursların ədalətsiz və qanunsuz istifadəsi, qitənin inkişafını ləngidən səbəblər barədə ətraflı fikir mübadiləsi aparılıb. Müstəmləkəçiliyin Afrika ölkələrində, eləcə də dənizaşırı ərazilərdə bütün sahələrdə, o cümlədən iqtisadiyyatda, mədəniyyətdə, siyasətdə, ətraf mühitdə dərin mənfi izlər qoyduğu qeyd edilib.

Fransanın bu siyasətinin Afrika xalqlarında yaratdığı sosial və siyasi nizamsızlıq, iqtisadi istismar və yoxsullaşma, yerli xalqların mədəniyyətinin və milli kimliyinin itirilməsi, etnik bölünmə, iqtisadi və siyasi asılılığın mirası kimi mənfi təsirləri artıq dözülməz həddə çatıb. Ona görə də, bu xalqların mübarizəsinə beynəlxalq ictimaiyyət də dəstək verməlidir.

## Bertrand Çamoulaud: Dənizaşırı ərazilərdə kolonializmə qarşı cərəyan güclənir

Ümumiyyətlə, sözügedən xalqların Fransa müstəmləkəçiliyinə qarşı mübarizəsinin güclənməsində Azərbaycanın da siyasi və mənəvi dəstəyi rol oynayır. Çünki ölkəmiz müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları hər zaman müdafiə edir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib. Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə və xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların hüquqları ilə bağlı çoxlu sayda beynəlxalq konfrans təşkil edib.

**Fransanın təsir dairəsində olan Qərbi Afrika Dövlətləri İqtisadi Birliyinin (ECOWAS) sıraları da seyrəlməkdədir. Belə ki, Mali, Burkina-Faso və Niger ECOWAS-ı tərk etmək barədə qərarlarının qəti olmasını bir daha təsdiqləyib və təşkilatın onlara yenidən düşünmək üçün verdiyi 6 aylıq möhləti rədd ediblər. Onlar bunu sabitliyi pozmağa xarici cəhd hesab ediblər**

Təsadüfi deyil ki, Fransa Daxili İşlər Nazirliyinin Ərazi Kəşfiyyatı üzrə Milli İdarəsinin rəisi Bertrand Çamoulaud Fransanın Afrikadakı mövcudluğundan danışarkən Bakı Təşəbbüs Qrupunun adını çəkib. O, "Le Monde" qəzetinə müsahibəsində etiraf edib ki, dənizaşırı ərazilərdə kolonializmə qarşı cərəyan güclənir: "Onların təsiri bu tip müstəqillik hərəkatlarını dəstəkləyən və onlara tribuna verən Bakı Təşəbbüs Qrupu kimi xarici aktorlar tərəfindən gücləndirilib". Ərazi Kəşfiyyatı üzrə Milli İdarənin dənizaşırı ərazilərdəki hərəkatlara təsir gücünün zəif olduğunu etiraf edən B.Çamoulaud bildirib ki, informasiya müharibəsi şəraitində Kemi Seba kimi şəxslər "fransız diplomatiyasına zərbə vurur".




Xatırladaq ki, Kemi Seba bu ilin oktyabrında Bakıda keçirilən "Afrikada Fransanın neokolonializm siyasətinə" həsr edilmiş beynəlxalq konfransda çıxışı zamanı Azərbaycanın kolonizasiyaya qarşı ən ciddi mübarizə aparanlar sırasında olduğunu bildirmişdi. Azərbaycandan qayıtdıqdan sonra Fransa xüsusi xidmət orqanları onu saxlasa da, tezliklə sərbəst buraxmağa məcbur olmuşdu.

*Nardar BAYRAMLI*

# Sülh yolunda: qətiyyət! Və mövqesizlik...

Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində davam edən proses nəticəyə yaxınlaşır. Hər iki tərəf danışıqlarla bağlı maddələrin predmetlər üzrə çox hissəsinin razılaşdırıldığını bildirirlər. Hətta müzakirə mövzusu olan 17 maddədən 15-i ətrafında razılığın əldə olunması ilə bağlı fikirlər səsləndirilir. Maraqlıdır ki, iki ildən artıqdır özünün qeyri-konstruktiv mövqeyi ilə regionda sülhün və təhlükəsizliyin təmin olunmasına maneçilik törədən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyən Ermənistan tərəfi də artıq sülh anonsları səsləndirir. Bu, rəsmi İrəvanın artıq Azərbaycanın regionda yaratdığı yeni siyasi-iqtisadi reallıqları qəbul etməsi kimi dəyərləndirilsə də, bu ölkənin manipulyativ mahiyyəti hələ də sülhün yaranmasına maneədir. İrəvan özlüyündə anlayır ki, yaranan siyasi-iqtisadi reallıqlar sülhü və əməkdaşlığı aktuallışdırır - belə bir iqtisadi platforma isə indiki zamanda Ermənistan üçün hava-su kimi lazımlıdır. Sosial problemlərin əsirinə çevrilmiş bu ölkə Azərbaycanın ona tanıdığı imkandan maksimum bəhrələnməli, özünün yeni inkişaf mərhələsini formalaşdırmalıdır. Amma bununla belə, həm silahlanma, həm də Ermənistanın siyasi rəhbərliyinin vaxtaşırı səsləndirdikləri qeyri-standart açıqlamalar prosesin nəticəyə varmasına mane olur.

## Azərbaycan sülhün və təhlükəsizliyin davamlı olması üçün səy göstərir

## Sülhün yaxınlaşması: Ermənistan manipulyasiyadan əl çəkməlidir...

2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirləri sülh prosesini məzmunca yeni və nəticəyə yaxın bir mərhələyə daşıyıb. Hər zaman sülhpərvər mövqeyə malik olan Azərbaycanın prosesi major notlarla yekunlaşdırmaq üçün həm qətiyyəti, həm də şəffaf mövqeyi var - bəlli olduğu kimi, hələ 2022-ci ildən ölkəmizin təşəbbüsü ilə ortaya çıxan sülh danışıqları üçün baza prinsipi kimi irəli sürülən məsələlər iki dövlətin münasibətlərinin yaxınlaşmasında əsaslı rol oynamaq imkanındadır. Bu, həm qarşılıqlı etimadın yüksəlməsinə, həm də yeni reallıqlarda aradan qaldırılacaq problemlərin həllinə yaxından kömək olacaq. Azərbaycan hər zaman bəyan edib ki, sülhün və təhlükəsizliyin davamlı olması üçün səy göstərir. Sadəcə olaraq, İrəvanın məsələdəki səmimiyyəti vacib faktorlardandır. Bu ölkənin yürütdüyü siyasət, məsələlərə münasibəti regionda təhlükəsizlik arxitekturasının daha da gücləndirilməsinə töhfə verməyə istiqamətlənməlidir.

Son dövrlərdə danışıqların predmetləri üzrə maddələrin razılaşdırılması məsələsi aktualdır. Azərbaycanın hələ 2022-ci ilin martında irəli sürdüyü məsələlər bu və ya digər şəkildə bu gün Ermənistanın siyasi rəhbərliyi tərəfindən təsdiqlənir. Belə ki, Azərbaycanın irəli sürdüyü 5 baza prinsipinin birincisi dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanımasıdır. Bu məsələ həm BMT-nin təməl prinisiplərinə, həm də digər beynəxalq qanunvericiliyə əsaslanır. Ermənistan Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımalıdır. Bu amil Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində ən mühüm addım sayıla bilər. Digər bir prinsip isə, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. 200 ilə yaxındır ki, Azərbaycana qarşı əsassız torpaq iddaları irəli sürən, işğal siyasəti aparan Ermənistan artıq bu iddialarından geri durmalıdır. Onlar anlamalıdırlar ki, bu cür xəstə təfəkkürə

## Sülhün şərtləri: Azərbaycanın ortaya qoyduğu və beynəlxalq hüquqa söykənən müddəalar

söykənən əsassız iddialar iki xalq arasında münasibətlərin kəskinləşməsi ilə yanaşı, normal qonşuluq münasibətlərinin yaranmasına da mane olur.

Üçüncü baza prinsipi isə dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinməkdir. Bundan başqa, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, o cümlədən, nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması da ikitərəfli münasibətlərin normallaşması üçün nəzərdə tutulan baza prinsipləri arasında yer alır. Bu müddəalara nəzər saldıqda məlum olur ki, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilərlər. Bu, qarşıdakı dövrdə ölkələr arasında normal münasibətlərin qurulmasına da stimul verən amilə çevrilər.

Qeyd olunduğu kimi, sülhlə bağlı mövqelər əsaslı dərəcədə yaxınlaşdırılıb. Prezident İlham Əliyev Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirib ki, biz əslində sülh sazişi üzrə böyük irəliləyiş əldə etmişik: “Bu sənədin 17 maddəsinin 15-i razılaşdırılıb, ikisi qalıb. Kazanda Ermənistanın baş naziri ilə sonuncu görüşüm zamanı eşitdiyim və hiss etdiyim o oldu ki, razılaşdırılmamış bu iki maddə də Ermənistan tərəfindən qəbul oluna bilər, mən bizim şərtlərimizi nəzərdə tuturam”.



## Sülhün zəmini: Konstitusiya dəyişikliyi, Minsk qrupu ilə bağlı açıq mövqe...

Bununla belə, sülh üçün əsas amillər hələ də açıq qalmaqdadır. Sülhün bərqərar olması üçün zəmini formalaşdıracaq iki şərtdən biri və birincisi Ermənistanın manipulyasiyalardan əl çəkərək qeyri-konstruktiv davranışlarına son qoymasıdır. Azərbaycanın humanist və beynəlxalq hüquqa söykənən mövqeyinin qarşılığında rəsmi İrəvanın bir sıra məsələlərdə məqsədli şəkildə ləngiməsi prosesin effektivliyini azaldan amil kimi çıxış edir. İlk növbədə Ermənistan özünün əsassız iddialarını unutmalı, Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkdiyini ortaya qoymalıdır. Sülh üçün ilkin və əsaslı şərt məhz budur - bunun üçün isə Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir.

Digər məqam isə, vaxtilə “münaqişə”nin tənzimlənməsi üçün yaradılmış və artıq heç bir işə yaramayan ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı məsələnin İrəvan tərəfindən dəstəklənməsidir. Artıq “Qarabağ münaqişəsi” adlı bir mövhum mövcud olmadığı üçün, belə bir “vasitəçi mexanizmə” də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər isə qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəfli kontekstdə həll oluna bir məsələdir  - nəticə etibarı ilə, ATƏT-in Minsk qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur.

Prezident İlham Əliyev bildirib ki, erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var: “Birincisi, öz Konstitusiyasını dəyişməkdir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik Bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ muxtar vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də Konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə obyektiv şərtdir. Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir”.

## Sülhə maneə: Qeyri-müəyyən açıqlamalar, silahlanma...

Eyni zamanda, Mirzoyan, Simonyan kimi Ermənistan siyasi rəhbərləri zaman-zaman verdikləri açıqlamalarla sanki sülh prosesini hədəfə alırlar. Simonyanın Aİ müşahidəçilərinin sülhdən sonra “getməsi” ilə bağlı fikiləri, Mirzoyanın delimitasiya prosesi ilə bağlı “qaranlıq mənalı” açıqlamaları açıq şəkildə sabotaj xarakteri daşıyır. Paralel olaraq İrəvanın Fransa, Yunanıstan və Hindistan kimi ölkələr tərəfindən silahlandırılması sülhə qarşı demarş sayıla bilər. Məhz bu kimi amillər 2024-cü ilin sülh ili olmasına maneçilik yaratdı. Halbuki, rəsmi İrəvanın ortaya qoyacağı qətiyyət bu məsələnin həllini daha da tezləşdirə bilərdi.

Eyni zamanda, Zəngəzur dəhlizi ilə bağlı qeyri-müəyyən açıqlamalar, Ermənistanın öz öhdəliyini yerinə yetirməməsi sülhə kölgə salan amillər sırasında yer alır.

## Sülh referendumu: İrəvanın Aİ imitasiyası

Ermənistanın sülh məsələsindəki mövqesizliyinin ən bariz sübutlarından biri də ölkənin hələ də “siyasi oyunlar” axtarışanda olmasıdır. Məsələn, rəsmi İrəvanın sülh üçün tələb olunan Konstitusiya maddəsinin dəyişilməsi ilə bağlı referendum keçirəcəyi gözlənilərkən, onlar daha fərqli qərarla yadda qalır - Aİ-yə üzvlüklə bağlı referendum üçün “hazırlıq” prosesinə başlayır. Hətta Ermənistan MSK-sı bunun üçün edilən müraciət imzalarının 50 minini təsdiqləyir. Bu isə siyasi qərarsızlıq, siyasi mövqesizlikdir. Ermənistan üçün hazırda ən mühüm prioritet məhz sülh olmalı halda, Paşinyan diqqəti fərqli istiqamətə yönəltməyə çalışır - Aİ-yə qeyri-real üzvlük məsələsini ölkə üçün “süni aktuallaşdırma” səviyyəsinə gətirir. Ermənistanın Aİ üzvlüyü məsələsinin qeyri-real olmasına gəldikdə isə, bu həqiqətən belədir. İrəvan fərqli bir “iqtisadi qruplaşmada” - Avrasiya İqtisadi İttifaqının (AİI) üzvüdür. Cari ildə qurumun sədri də məhz Ermənistandır. Dekabrın 25-də Sankt-Peterburqda Ali Avrasiya İqtisadi Şurasının iclası keçiriləcək və Ermənistan bu iclasa da sədrlik edəcək. Beləliklə, Ermənistan bütün məsələlərdə olduğu kimi sülh məsələsində də qərarsızlıq, mövqesizlik içindədir...

## Sülh üçün: Azərbaycanın iradəsinə əsasən baş tutan ikitərəfli təmaslar

Halbuki Azərbaycanın iradəsinə əsasən baş tutan ikitərəfli təmaslar məsələnin həlli üçün olduqca əlverişli bir müstəvi formalaşdırıb. Keçirilən ikitərəfli görüşlər onu göstərir ki, məsələnin qarşılıqlı təmas formatında real həlli mövcuddur. Məsələyə kənar müdaxilə və ya fərqli vasitəçilik “arzusu” üçüncü bir tərəfin bu və ya digər şəkildə ən minimal həddə də olsa öz maraqları müstəvisindən çıxış etməsinə yol açır. Bu mənada, Azərbaycan müzakirələrin ikitərəfli təmas formatında inkişafını dəstəkləyir.

Beləliklə, Ermənistan üçün hazırki münbit şərait bir çox üstünlüklər vəd edir - İrəvan destruktiv açıqlamalardan və fikirlərdən, əməllərdən xüsusilə silahlanmadan uzaq dayanmaqla bölgənin gələcək perspektivi üçün öz töhfəsini təqdim etməlidir. Sülhün imzalanması bölgəyə yeni iqtisadi şəkilləndirmə verəcəyi qədər Ermənistanın da dirçəlməsinə vəsilə olacaq. Bu isə, İrəvanın dövlət maraqları ilə üstüstə düşür...

**P.SADAYOĞLU**

# Nağdsız hesablaşmalarla bağlı yeniliklər

**Vergi ödəyiciləri tərəfindən nağd qaydada aparılan hesablaşmaların məbləği artacaq**

Prezident İlham Əliyev “Nağdsız hesablaşmalar haqqında” qanunda dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib. Dəyişikliyə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında iki yüz min manatı ötən ictimai iaşə fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən ay ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə ay ərzində on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir. Yəni, bu dəyişiklik 15 min deyil, 30 min manatlıq limitlə bağlı hüquqi məsələnin tənzimlənməsini nəzərdə tutur.

## Nağd dövriyyə limitinin artırılmasını zəruri edən amillər

Yeni dəyişikliklər biznes və sahibkarlıq sektoru təmsilçilərinin maraqları nəzərə alınmaqla edilib. Belə ki, ölkə ərazisində nağdsız hesablaşmalarla bağlı limitlərin tətbiq edilməsindən artıq bir neçə il keçib və bu müddət ərzində ölkənin iqtisadi həyatında bir çox dəyişikliklər baş verib, həmin dəyişikliklər isə biznesin apardığı nağdsız əməliyyatların dövriyyələrinə yeni baxışı formalaşdırıb. Bu məqsədlə biznes icması və sahibkar birlikləri ilə keçirilmiş bir sıra görüşlərdə vergi ödəyiciləri tərəfindən səsləndirilən aktual çətinliklər mövcud limitlərə yenidən baxılması zərurətini yaradıb. Xüsusilə də, iri və orta sahibkarlıq subyektləri üzrə kiçik sahibkarlıq subyektləri arasında eyni həcmdə nağd dövriyyə limitinin sabit qalması tərəflərin apardığı hesablaşmalarda çətinliklərə səbəb olurdu. Bu məhdudiyyət bir sıra maliyyə əməliyyatlarında tələb olunan nağd vəsait çatışmzalığı yaradırdı. Bu baxımdan həmin subyektlər üçün nağd dövriyyə limitinin artırılması zərurətinin aktuallığı vergi orqanına çatdırılıb və həmin məsələ artıq müvafiq qanunvericilikdə nəzərə alınmaqla reallaşıb.

Beləliklə, “Nağdsız hesablaşmalar haqqında” qanuna dəyişikliklərə əsasən, dövriyyədən asılı olaraq differensial yanaşma tətbiq olunacaq. Belə ki,

ƏDV və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin əvvəlki təqvim ayında satış dövriyyəsinin (ƏDV daxil olmaqla) 2 faizi 30 min manatdan az olduqda, ay ərzində ümumi məbləği 30 min manatı keçən hesablaşmalar üzrə ödənişlər nağdsız qaydada aparılacaq. Habelə əvvəlki təqvim ayında satış dövriyyəsinin (ƏDV daxil olmaqla) 2 faizi 30 min manatdan çox, 50 min manatdan az olduqda, satış dövriyyəsinin 2 faizindən çox olan məbləği üzrə hesablaşmalar da nağdsız qaydada həyata keçiriləcək.



## Biznesin dövriyyəsinə differensial yanaşma...

Digər differensial yanaşmaya əsasən, əvvəlki təqvim ayında satış dövriyyəsinin 2 faizi 50 min manatdan çox olduqda, nağd hesablaşma limiti 50 min manat təşkil edəcək. Ay ərzində ümumi məbləği 50 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər isə yalnız nağdsız qaydada aparılacaq. Məsələn, ƏDV ödəyicisinin ötən ayda təqdim etdiyi malların dəyəri ƏDV daxil 2 milyon manat təşkil edib. Məlumdur ki, hazırkı qanunvericiliyə əsasən, ƏDV ödəyiciləri ay ərzində 30 min manatdan artıq nağd ödənişləri edə bilməzlər. Nəzərədə tutulan dəyişiklikdən sonra isə ƏDV ödəyicisi cari ayda 40 min manat (2 milyon manat-2 faiz) məbləğində nağd qaydada ödənişləri həyata keçirə biləcək. 40 min manatdan artıq hissəni isə nağdsız qaydada aparacaq. Əgər ƏDV ödəyicisinin ötən ayda təqdim etdiyi malların, xidmətlərin dəyəri ƏDV daxil 5 milyon manat olmuşsa, bu zaman 5 milyon manatın 2 faizi 100 min manat təşkil etsə belə, ona 50 min manata qədər nağd qaydada ödənişlər aparmağa icazə veriləcək. Nəticədə bu dəyişikliklər, yəni limitin artırılması sahibkarlıq subyektlərinin-nağd dövriyyə limitinin artırılmasına səbəb olacaq.

Beləliklə, qanuna edilən dəyişikliklərin 2025-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəticəsində vergi ödəyiciləri tərəfindən ay ərzində nağd qaydada aparılmasına icazə verilən hesablaşmaların məbləği artacaq. Bu isə həmin vergi ödəyicilərinin apardığı maliyyə əməliyyatlarının çevikliyinə müsbət təsir göstərəcək.

**E.CƏFƏRLİ**

# Dövlət maraqlarımızı qorumaq naminə...

## Azərbaycandakı mühit dünya dövlətləri üçün örnəkdir!

Dövlət maraqlarının qorunması hər bir vətəndaşın vəzifəsidir. Çünki dövlət maraqları müdafiə olunmadığı təqdirdə ölkənin suverenliyi, təhlükəsizliyi ciddi təhdid altına düşmüş olar. Bu baxımdan siyasi, sosial, dini, irqi kimliyindən asılı olmayaraq, hər bir vətəndaşın ən ümdə vəzifəsi məhz dövlət maraqlarının müdafiəsi olmalıdır.

Cəmiyyətimiz ümumilikdə ictimai və dövlət maraqları kontekstində daim birlik nümayiş etdirib. Bunun ən bariz nümunələrindən biri İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan xalqının nümayiş etdirdiyi birlikdir. Müharibə dönəmində Azərbaycan əhalisi, siyasi, ictimai təşkilatlar, o cümlədən xaricdəki azərbaycanlılar vahid yumruq kimi birləşdi və dövlətimizin, ordumuzun yanında olduğunu açıq şəkildə dünyaya bəyan etdi. Bu birlik müharibədə qazanılan tarixi qələbədə böyük paya sahib oldu. Prezident İlham Əliyev də müharibə dönəmində və sonrakı zamanlarda xalqa müraciəti zamanı bu məsələyə toxunaraq milli birliyimizin vacibliyini xüsusi olaraq qeyd etmişdi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır

### Dövlət maraqlarımızı ön planda tutmalıyıq!

Mövzunu “Yeni Azərbaycan”a şərh edən Milli Məclisin üzvü Tahir Rzayev bildirib ki, ölkəmizin uğurlarını, qazandığımız qələbəni, bölgədəki gücümüzü, lider dövlət statusumuzu qəbul etməyən region dövlətləri və beynəlxalq güclər var. Deputat qeyd edib ki, həmin güclər bölgədəki maraqlarını təmin etmək üçün Azərbaycanı hədəf kimi seçib və bu və ya digər formada təzyiqlər etməyə cəhd göstərirlər: “Belə məqamda Azərbaycanın dövlət maraqlarını hər birimiz ön planda tutmalı və bütün güclərə qarşı Azərbaycan dövlətinin mövqeyini müdafiə etməliyik”.

### Vətəndaşların həmrəyliyi önəmli nüansdır

T.Rzayevin sözlərinə görə, müasir dünyada milli və dövlət maraqlarının müdafiəsi naminə vətəndaş həmrəyliyinin əldə edilməsi ən önəmli nüanslardan biridir: “Özəlliklə də qlobalist və imperialist şüurun dünyadakı mühafizəkar sis-



temlərə qarşı açdığı savaş fonunda milli dövlətçilik ənənələrinin təbliğatının genişləndirilməsi, eyni zamanda dövlətlərin cəmiyyət daxilində milli mənafeyinin qorunması uğrunda birləşmək üçün vətəndaşlar arasında maarifləndirmə işinin genişləndirilməsi əsas ideoloji çağırışlardan biridir. Hansı dövlətlərdə ki, ictimai və dövlət maraqları naminə vətəndaşlar tək yumruq olmağı bacarır, eyni zamanda xalq-dövlət birliyi modeli uğurla tətbiq olunur, həmin dövlətlər qlobal şüurların kataklizmlərindən uğurla çıxa bilir. Həmin cəmiyyətlər həm də daha dayanıqlı olur, dövlətlərdə ictimai-siyasi sabitlik uzun illər xalqın təhlükəsiz şəraitdə yaşamasına rəvac verir. İctimai və dövlət maraqlarının müdafiəsi kontekstində vətəndaş həmrəyliyinin təmin edilməsi, həm də insanların təhlükəsiz şəraitdə yaşamağa olan inam və etiqadını daha da gücləndirmiş olur”.

### Ölkəmiz uğurlu model formalaşdırıb...

Deputat əlavə edib ki, Azərbaycan ictimai və dövlət maraqlarının təmin edilməsi sahəsində kifayət qədər uğurlu model formalaşdıra bilib: “Bu gün dövlətin milli mənsubiyyətindən, dini inancından asılı olmayaraq bütün vətəndaşlar üçün tolerant mühit formalaşdırması, eyni zamanda inanc fərqliliyinə baxmayaraq, hər kəsə bərabərhüquqlu vətəndaş kimi yanaşması dövlətə olan sevginin artması ilə müşahidə edilir. Azərbaycanda xalq-dövlət birliyi, ictimai və dövlət maraqları kontekstində informasiya müharibəsində hər kəsin bir əsgər kimi fəal olması, beynəlxalq mediada, sosial şəbəkələrdə ölkəmizə qarşı informasiya hücumlarında hər kəs aktiv şəkildə dövlətin müdafiəçisi qismində çıxış edir.

Bəzən də ölkə maraqlarını qorumaq üçün aktiv hücum xəttində rol alırlar. Hesab edirəm ki, bu gün Azərbaycan vətəndaşının dövlətin taleyində önəmli məsələlərdə göstərdiyi sücaət, milli birlik modeli indiki həssas dövrdə dünyanın bir çox cəmiyyətlərinə örnək ola bilər. Bu baxımdan Azərbaycanda olan mühit dünya dövlətləri üçün də dərs çıxarılası vəziyyətdir.

Göründüyü kimi, ictimai və dövlət maraqlarında xalqı ayırmaq mümkün deyil. Azərbaycan bu baxımdan vahid mövqeyə və sarsılmaz birliyə sahibdir. Bundan sonrakı dönəmlər üçün də bu amil əsas götürülməlidir. Bütün ictimai-siyasi təşkilatlar da bu məsələdə aktiv olmalı, ictimai və dövlət maraqlarının müdafiəsində ön sıralarda dayanmalıdır”.

*Yeganə BAYRAMOVA*

# “Biz səsimizi bütün dünyaya duyurmağa davam edəcəyik” - gənc diplomat

İtaliyada Beynəlxalq münasibətlər və siyasi elmlər üzrə təhsil alan gənc diplomat Səkinə Qəhrəmanova Qərbi Azərbaycan mövzusunda fikirlərini bölüşüb. “Yeni Azərbaycan” xəbər verir ki, bu çıxışı etməkdə onun məqsədi, Qərbi Azərbaycanın tarixi, oradan deportasiya olunmuş azərbaycanlıların hüquqları və doğma yurdlarına qayıdış arzusu haqqında məlumatları ictimaiyyətlə bölüşməkdir:

“Qərbi Azərbaycan, indiki Ermənistan Respublikasının ərazisində yerləşən və əsrlər boyu azərbaycanlıların sıx şəkildə yaşadığı coğrafi məkan olub, zəngin mədəni irsi, tarixi abidələri və ənənələri ilə tanınır. Lakin XX əsrdə azərbaycanlıların bu torpaqlardan kütləvi şəkildə deportasiya edilməsi nəticəsində, bölgənin demoqrafik tərkibi dəyişdirilmiş və azərbaycanlılar öz doğma yurdlarından məhrum edilib.

Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası 3 əsas mərhələdə həyata keçirilib:

- Birinci mərhələ (1905-1920-ci illər): Bu dövrdə erməni millətçilərinin “Böyük Ermənistan” yaratmaq xülyası ilə azərbaycanlılara qarşı zorakılıqlar və qətliamlar törədilmiş, nəticədə minlərlə azərbaycanlı öz yurdlarını tərk etmək məcburiyyətində qalmışdır.
- İkinci mərhələ (1948-1953-cü illər): SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı fərmanına uyğun olaraq, Ermənistan SSR-in azərbaycanlı əhalisinin kütləvi şəkildə Azərbaycanın Kür-Araz ovalığına köçürülməsi həyata keçirilib. Bu proses zamanı minlərlə insan doğma yurdlarını tərk etmək məcburiyyətində qalıb.
- Üçüncü mərhələ (1988-1992-ci illər): Ermənistanın milli siyasəti nəticəsində, azərbaycanlılar yenidən kütləvi şəkildə deportasiya olunmuş və bu dəfə öz doğma torpaqlarından birdəfəlik məhrum edilib.

Deportasiya olunmuş azərbaycanlıların hüquqlarını müdafiə etmək və onların doğma yurdlarına qayıdışını təmin etmək məqsədi ilə Qərbi Azərbaycan İcması yaradılıb. İcma, deportasiya qurbanlarının hüquqlarının bərpası və mədəni irsin qorunması istiqamətində fəaliyyət göstərir. 2022-ci il avqustun 3-də İctimai Birliyin ümumi yığıncağında təşkilatın adı dəyişdirilərək “Qərbi Azərbaycan İcması”na çevrilmiş və yeni nizamnaməsi təsdiq olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə Qərbi Azərbaycan mövzusuna toxunmuş və bu məsələnin əhəmiyyətini vurğulayıb. O, Qərbi azərbaycanlıların öz doğma torpaqlarını heç zaman unutmadıqlarını və bu torpaqlara qayıdışın tarixi ədalətin bərpası baxımından vacib olduğunu bildirib. Prezident



İlham Əliyev qeyd edib: “Qərbi azərbaycanlılar heç zaman öz doğma torpaqlarını unutmayıblar. Böyük Azərbaycan xalqının bir hissəsi olaraq biz öz kiçik vətənimizin həsrətini həmişə çəkmişik.”

Qərbi Azərbaycan, azərbaycanlıların tarixi və mədəni irsinin ayrılmaz bir parçasıdır. Deportasiya olunmuş azərbaycanlıların doğma yurdlarına qayıdışı, tarixi ədalətin bərpası və bölgədə sülhün təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir”.

O, həmçinin bu istiqamətdə atılan addımlar və Qərbi Azərbaycan İcmasının fəaliyyəti, qayıdış prosesinin reallaşmasına ümid verdiyini də vurğulayıb: “Mən, azərbaycanlı gənc diplomat olaraq bu çağırışı etməklə sizi əmin edirəm ki, heç bir güc bizim keçmişimizi silə bilməz. Qərbi Azərbaycan, yalnız tarixin yaddaşı deyil, həm də bizim gələcəyimizin təməlidir. Biz, haqqımızı qorumağa, ədaləti bərpa etməyə və səsimizi bütün dünyaya duyurmağa davam edəcəyik. Bu, hər bir azərbaycanlının, yurdumun hər bir vətəndaşının haqqıdır. Hədəfimiz tarixi həqiqətləri üzə çıxarmaqla yanaşı, haqq-ədalətin bərpası və tarixi torpaqlarımıza qayıdışdır. Bu qayıdışın vaxtı isə uzaqda deyil. Qərbi Azərbaycan heç bir güc tərəfindən silinməyəcək. Bu mübarizə, haqqın qələbəsi ilə sona çatacaq. Səsimizi yüksəldəcəyik və haqqımızı tanıdacağıq”.

*Havar Şəfiyeva*

# Erməni də Əli Kərimlidən ləyaqətli davrandı...

## Paşinyan təəssüflənir, Əli Kərimli sevinir

Aktau yaxınlığında baş vermiş təyyarə faciəsi Azərbaycan xalqı tərəfindən böyük hüznlə qarşılandı. Belə bir məqamda xalqımızın və dövlətimizin dostları başsağlığı verdi, bizim bu hüznümüzə şərik olduqlarını bildirdilər. Hətta Ermənistanın baş naziri Nikol Paşinyan belə Bakı-Qroznı reysini yerinə yetirən sərnişin təyyarəsinin qəzaya uğraması ilə bağlı başsağlığı verib. Paşinyan “X” hesabında etdiyi paylaşımında “Bakı-Qroznı reysində həlak olanların ailələrinə başsağlığı verirəm”, - deyə qeyd edib.



Nikol Pashinyan @NikolPashinyan · 26 dk
Condolences to the families of the victims of the Baku-Grozny flight.

The tragedy that struck people living their daily lives cannot help but cause sorrow.

40 39 284 8,1B

Düşmən ölkənin rəhbərinin bu davranışı haradasa ləyaqətli sayıla bilər - bu faciəyə təəssüfləndiyini ifadə edənlər bizim dərdimizə şərik olurlar. Amma təəssüf ki, bu millətin üzvü olduğunu iddia edən bəzi şəxslər düşmən qədər ləyaqətli ola bilmirlər. Adını “müxalifət” qoymuş, amma xalqımızın ən qatı və ən rəzil düşmənindən də betər davranış sərgiləyən AXCP sədri Əli Kərimli yenə də özünün çirkin “fürsətcilliyindən” əl çəkmir - Kərimli bu qəzada həyatını itirən insanların həlak olma səbəbini özünün düşmən xisləti ilə “izah etməyə” cəhd göstərir. Rəzilliyin ən son həddini nümayiş etdirən Kərimli iddia edir ki, bu təyyarənin qəzaya uğramasına səbəb “quru sərhəddinin bağlı olmasıdır”.



Ali Karimli (Əli Kərimli)
1s ·
Yada salıram ki, əgər hakimiyyət absurd səbəblərlə ölkənin quru sərhədlərini bağlı saxlamasaydı, bu gün təyyarə qəzasında həlak olanların əhəmiyyətli hissəsi Qroznıya yəqin ki, quru yolu ilə getməyə üstünlük verərdi. Azərbaycan hakimiyyətini növbəti dəfə bu absurd qərarı dəyişməyə və quru sərhədlərini açmağa çağırıram.

Həmin təyyarədə Qazaxıstan və Qırğızıstan vətəndaşları da həyatlarını itirib - Kərimli bunu nə ilə əsaslandırır görəsən? Təbii ki, bu gözlənilən idi - hələ 2018-ci ildə Şərur rayonunun Günnüt kəndi daxil olmaqla, on bir min hektar ərazi azad edilərkən, AXCP sədri özünün sosial şəbəkə hesabında yazırdı: “Naxçıvanda guya 11 min hektar torpaq sahəsinin Ermənistanın işğalından azad edilməsi haqda məlumat yalan idi. Bütün yalanlar kimi, bu da tez ifşa olundu. Məlum oldu ki, heç bir döyüşdən, torpaq azad etməkdən söhbət getmir”.

Eyni “mövqe” 44 günlük müharibədə erməni əsgərlərinin itkisinin şişirdildiyini iddia edən zaman da göstərildi, müharibənin nəticələri xaincəsinə “yarımçıq” adlandırıldı, hətta ölkəmizə qarşı sanksiya belə tələb edildi. Kərimlinin bu düşmən davranışları bütün məqamlarda önə çıxır, özünü büruzə verir.

Bu dəfə də fərqli bir şey baş vermədi - adını “siyasətçi” qoymuş bu məsuliyyətsizin açıqlamaları yenə də birmənalı şəkildə düşmən xislətinin ifadəsidir. Burada bir deyim yerinə düşər - erməni də səndən ləyaqətli çıxdı...s

*Pərviz*

# Paşinyanın "B" planı...

## "Debat çağırışı"nın arxasında nə dayanır?

2025-ci ilin astanasında Cənubi Qafqaz üçün ən mühüm perspektiv sülhdür. Bayden administrasiyasının kölgəsinə sığınıb, Fransanın destruktiv oyunlarına alət olaraq bu günə qədər sülhdən yayınan Ermənistan artıq dalana dirənib - yeni dövrdə İrəvanın manipulyasiya imkanları demək olar ki, yoxdur. Məhz bu səbəbdəndir ki, Ermənistanın baş naziri Nikol Paşinyan "məsuliyyətin bölüşdürülməsi" üçün hətta özünün əsas rəqiblərini, revanşist komandanın üzvlərini "debata" çağırır.

### Paşinyandan rəqiblərinə "çağırış"...

Belə ki, Paşinyan Ermənistanın keçmiş prezidentləri ilə canlı debatlar formatında dediklərini əsaslandırmağa hazır olduğunu bildirib. "Yaxşı ki, keçmiş prezidentlər öz nümayəndələri vasitəsilə "Dağlıq Qarabağ" üzrə danışıqlar prosesi ilə bağlı mənim yazıma cavab verdilər. Amma mən nümayəndələrin arxasında gizlənmirəm. Məncə, onların da gizlənməməsi düzgün olardı. Mənim yazdıqlarımı mübahisələndirən prezidentlərin reaksiyasını gözləyirəm", - Paşinyan yazıb.

Xatırladaq ki, Paşinyan sosial şəbəkə hesabında 1994-cü ildə imzalanan atəşkəsdən sonra bütün danışıqların keçmiş "Dağlıq Qarabağ"ın Azərbaycanın nəzarətinə qaytarılması istiqamətində getdiyini bildirmişdi. O vurğulamışdı ki, Ermənistan əvvəlcədən Qarabağı nə "müstəqil dövlət" kimi tanımayıb, nə də öz daxilində ona hansısa bir perspektiv formalaşdırmayıb.



### Eks prezidentlər Paşinyana "yox" dedi...

İndiki halda vəziyyət demək olar ki, aydındır - aylardır davam edən siyasi oyunlar bitmək üzrədir. "5 aprel" kimi "sığınacaq durumu" yaradan "müttəfiqliklər" daşa dəyir. Ukryna müharibəsi isə başa çatmaq üzrədir. Beləliklə, bölgədə yeni siyasi situasiya formalaşır. Artıq Ermənistanın siyasi hakimiyyətinin sülhlə bağlı şərtləri qəbul etməmək "lüksü" yoxdur. Paşinyan isə özünün siyasi gələcəyini sığortalamaq fikrindədir. Bunun üçün ən "rahat yol" Qarabağın işğalında birbaşa iştirak edən şəxsləri - Ermənistanın keçmiş rəhbərlərini "prosesə qarışdırmaq", "siyasi indulgensiya" əldə etmək üçün məsuliyyətin hədəfini özündən yayındırmaqdır. Təbii ki, Azərbaycana qarşı hərbi cinayətlər törədən Köçəryan-Sarkisyan cütlüyü belə bir debatdan "çəkinir" - onlar dərk edirlər ki, Paşinyan seçicilərin etimadını qazanmaq üçün keçmiş prezidentlərin bütün "gizli kartlarını", cinayətlərini və Qarabağın işğalı ilə əlaqəli şəkildə formalaşdırdıqları korrupsiya bataqlığını (xaricdən gələn milyonlarla ianələr məhz Qarabağla əlaqələndirilərək mənimsənilib) ifşa edəcək. Boğulmamaq üçün "saman çöpü"ndən yapışmağa belə hazır olan Paşinyan üçün bu, problem deyil. Bu baxımdan da, keçmiş dövlət başçıları gözlənildiyi kimi debatdan boyun qaçırıblar. Belə ki, Ermənistanın ikinci prezidenti Robert Köçəryanın ofisinin rəhbəri Baqrat Mikoyan Nikol Paşinyanın debatda iştirak etmək çağırışına cavab verib. "Köçəryan uzun müddətdir ki, baş nazirin qocalıq qeydlərini oxumur. Müzakirə üçün mübahisəli mövzu olmalıdır. Artsax və Ermənistanın suveren ərazilərinin təhvil verilməsinin indiki baş nazirin şəxsi "xidməti" olması isə danılmaz tarixi faktdır və bütün ağıl sahibləri üçün aydındır" - ofis rəhbəri iddia edib.

O deyib ki, 2018-2024-cü illərdə Ermənistanda bütün hakimiyyət bir nəfərə məxsus idi və bütün hadisələrə görə bu şəxs tam məsuliyyət daşıyır: "Bu adam indiki baş nazirdir. Heç kim "TikTok"da komik personajlarla ciddi mövzuları müzakirə etməyəcək. Mən isə minlərlə polis və mühafizəçinin arxasında gizlənən eyham barədə susacağam. Bunu söyləməyin ən yaxşı yolu bunkerlərin möhkəm divarlarıdır".

Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın ofisi də Paşinyanın debat çağırışına cavab verib. "Aşkar şeylər haqqında mübahisə etmək mənasızdır. Xüsusən ona görə ki, hakimiyyətin ələ keçirilməsinə qədər hər şey təfərrüatlı şəkildə ortadadır. Üstəlik, Ermənistan lideri danışıqlar prosesinin baş tutmaması üçün hər şeyi etdi. Əgər o, həqiqətən də debat keçirmək istəyirsə, onda biz bunu Rusiya, ABŞ və Fransa prezidentləri ilə həyata keçirməyi tövsiyə edirik".

**Azərbaycana qarşı hərbi cinayətlər törədən Köçəryan-Sarkisyan cütlüyü belə bir debatdan "çəkinir" - onlar dərk edirlər ki, Paşinyan seçicilərin etimadını qazanmaq üçün keçmiş prezidentlərin bütün "gizli kartlarını", cinayətlərini və Qarabağın işğalı ilə əlaqəli şəkildə formalaşdırdıqları korrupsiya bataqlığını (xaricdən gələn milyonlarla ianələr məhz Qarabağla əlaqələndirilərək mənimsənilib) ifşa edəcək. Boğulmamaq üçün "saman çöpü"ndən yapışmağa belə hazır olan Paşinyan üçün bu problem deyil**

### Paşinyanın özünüxilas planı...

Bir sıra erməni siyasətçiləri isə Köçəryan-Sarkisyan tandeminin məqsədli şəkildə Paşinyana kömək etdiyi düşüncəsindədir. Belə ki, bir müddət öncə "Parlaq Ermənistan" partiyasının sədri, keçmiş səfir Edmon Marukyan bildirmişdi ki, eks-prezidentlər hazırkı baş nazirin reytinqini iki dəfə artırırlar. Marukyanın sözlərinə görə, Köçəryan və Sarkisyanın yeni müxalifət qüvvələrinin yaranmasına və ya müxalifət meydanında siyasi qüvvələrin fəaliyyətinə mane olması barədə bəyanatları reallığı əks etdirmir. "Onlar Ermənistanın gələcəyi naminə Nikol Paşinyanın getməsini istədiklərini bildirirlər. Lakin əgər həqiqətən də Köçəryan və Sarkisyan Paşinyanın getməsini istəyirlərsə, bununla yanaşı, onun reytinqinin artmasına töhfə verməməlidirlər. Sosioloji sorğulara görə, Paşinyanın reytinqi ayrılıqda bir rəqəmdir, lakin eyni reytinq Köçəryana və ya Sarkisyana qarşı qoyulduqda ikiqat artır," - deyə Marukyan vurğulayıb.

Bu baxımdan da, son debat çağırışının da Paşinyanın bu tipli yeni gedişi sayırlar. Nəticə etibarı ilə, Ermənistan cəmiyyəti anlayır ki, sülhdən başqa çıxış yolu qalmayıb - Paşinyanın özünüxilas planı da məhz sülhün qaçılmazlığı ilə izah edilir.

***SADİQ***

# Tbilisi küçələrində Soros izi...

Qonşu və dost Gürcüstanda son iki ildə "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsinin müzakirələri və qəbulu fonunda başlayan müxalifət-iqtidar qarşıdurmaları bir qədər bundan əvvəl yekunlaşan parlament və prezident seçkilərindən sonra daha da gərginləşib. Xüsusilə də hakimiyyət daxilində parçalanma diqqət çəkir. Milli qanunvericiliyə əsasən səlahiyyət müddəti dekabrın 29-da bitəcək prezident Salome Zurabişvili parlament və prezident seçkilərinin nəticələrini tanımır və özünü ölkədə yeganə legitim institut sayır. O, dekabrın 29-dan sonra da Prezident Sarayında qalıb fəaliyyətini davam etdirəcəyini bildirir.

### Xanım prezidentin iddiaları...

Gürcüstandakı qarşıdurmaları yalnız milli səviyyədə cərəyan edən siyasi proseslər kimi səciyyələndirmək doğru olmazdı. Siyasi böhrana qədər uzanan hadisələr əslində kollektiv Qərbin Cənubi Qafqaz siyasətindən qaynaqlanır. Qərb bu coğrafiyada qonşu dövlət olan və qlobal güc qismində çıxış edən Rusiyanın mövqeyini zəiflətməklə özünün daha geniş mövcudluğuna nail olmaq istəyir. Vaşinqton, Brüssel və Paris bu planı milli dövlətlər üzərindən reallaşdırmaq niyyətindədir. Təbii ki, öz siyasətində müstəqillik və suverenlik prinsiplərini önə çəkən Azərbaycan Qərbdən gələn diktələri qəbul etmir. Ölkəmizin siyasi rəhbərliyi qəti şəkildə bildirib ki, Azərbaycan heç vaxt qonşu dövlətlərə qarşı plasdarm olmayacaq. Rəsmi İrəvan Qərb ssenarisində yer alsa da, bu ölkənin sürüşkən və fürsətcil mövqeyi ona bəslənilən inamı azaldır. Bəli, bu gün Ermənistan həmişə forpostu olduğu Rusiyadan uzaqlaşmaq görüntüsü yaratmağa çalışır. Rəsmi İrəvanın bu hiyləgərliyi Qərbdən daha çox yardımlar almağa və mövcud hakimiyyətin ömrünü uzatmağa hesablanıb. Heç bir təminat yoxdur ki, bu ölkə gələcəkdə daha şirnikləndirici vədlər müqabilində oriyentasiyasını yenidən dəyişməsin. Bütün bunların fərqində olan Qərb Rusiyaya qarşı planlarını Gürcüstan üzərindən reallaşdırmaqda israrlıdır. Qərbə milli maraqlarından imtina edən, müəyyən təminatlar müqabilində sözə baxan Gürcüstan lazımdır. Ancaq qonşu ölkədə "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyasının qurduğu hökumət Avropa İttifaqına sürətli inteqrasiya vədlərinə aldanmayaraq suverenlik prinsipindən çıxış edir, gürcü xalqının mənafeyini və milli ləyaqətini qorumaqda israrlı mövqe sərgiləyir. Təəssüf doğuran haldır ki, bu gün Gürcüstanda Qərbdən maliyyə asılılığına malik geniş vətəndaş cəmiyyəti təsisatları şəbəkəsi formalaşıb. Həmin şəbəkə hökumətin iradəsini iqnor edərək Qərbdən gələn diktələrə uyğun davranır. Prezident Zurabişvili də bu sırada yer alır. O, hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası təkrar seçkilərin keçirilməsinə razılıq verməyəcəyi təqdirdə, təkrar parlament seçkilərinin təşkili məqsədilə şura formalaşdırmaq niyyətindədir. Zurabişvili bu barədə sosial şəbəkə hesabında etdiyi videomüraciətində bildirib.

Dövlət başçısının sözlərinə görə, o, hakim partiyanın rəhbərliyindən dekabrın 29-dək təkrar seçkilərin keçirilmə müddətinin razılaşdırılmasını gözləyir. Zurabişvili bildirib ki, hakim partiya kompromisə getməsə, ikinci ssenari qalacaq - "rejimin dağılması". O həmçinin seçilmiş prezident Mixail Kavelaşvilinin dekabrın 29-na təyin edilmiş inauqurasiyasına baxmayaraq, ölkənin prezidenti olaraq qalmaq niyyətini bir daha bəyan edib. "Təkrar seçkilərədək olan dövrü idarə etmək üçün şura yaradılacaq. Bu şuranın mandatı yalnız bir məsələyə - yeni seçkilərə hazırlıq olacaq. Artıq sənəd hazırlanır və yəqin ki, seçkilərin tezliklə keçirilməsi üçün bütün minimal şərtləri müəyyən edəcək sənəd hazır olacaq", - deyə Zurabişvili bildirib.



### Növbəti "rəngli inqilab" dalğası

Gürcüstan cəmiyyətində Zurabişvilinin ifadə etdiyi fikirlər ölkəni yeni "rəngli inqilaba", dağıdıcı "maydan hərəkatına" sürükləmək cəhdi kimi dəyərləndirlir. Gürcüstan parlamentinin sədr müavini Nino Tsilosani deyib ki, ölkədə noyabrın 28-dən keçirilən hökumət əleyhinə aksiyaların arxasında amerikalı milyarder Corc Sorosun fondu dayanır. Gürcüstan parlamentinin deputatı Eka Sepaşvili isə hesab edir ki, Salome Zurabişvili real deyil, paralel bir dünyada yaşayır. "Görünür o, xaricdən ciddi göstəriş alıb ki, növbədənkənar seçkilər təyin etsin və bu istiqamətdə çalışır. Lakin onun bu cəhdi baş tutmayacaq. Təəssüf ki, Gürcüstan tarixində ilk dəfədir ki, Konstitusiyanı pozan, qanunlara tabe olmayan və xalqın iradəsini nəzərə almayan belə bir prezidentimiz var. O, xarici aktorların tapşırıqlarını öz ölkəsinin maraqlarından üstün tutur", - deyə Sepaşvili vurğulayıb.





Gürcü xalqı bir dəfə "rəngli inqilab"ın kədərli nəticələrini öz taleyində yaşayıb. Ölkə qısamüddətli müharibəyə cəlb olunub və ərazilərinin bir qismini itirib. Buna görə də indi Gürcüstan cəmiyyətində hakimiyyətə qarşı yeni "rəngli inqilab" ssenarisi populyar deyil. Başqa sözlə desək, xalq ölkədə sabitliyi və davamlı inkişafı təmin edən mövcud hakimiyyəti dəstəkləyir. "Gürcü Arzusu -Demokratik Gürcüstan" Partiyası öz mövqeyində israrlıdır. Partiyanın icraçı katibi Mamuka Mdinaradze bildirib ki, prezident Salome Zurabişvilinin qeyri-adekvat bəyanatlar verməyinə yeganə səbəb onun ağır emosional fonudur. "Konstitusiyanı oxuyurlar, o qədər də cahil deyillər. Amma bunlar baş nazir təyin etmək, yeni seçkilər keçirmək istəyirlər. Lakin qeyd etmirlər ki, bunun üçün əsas olmalıdır", - deyə M.Mdinaradze vurğulayıb.

### Zurabişvili həbs oluna bilər

"Prezident Salome Zurabişvili yeni parlament seçkilərinin təyin olunması ideyasını yenidən irəli sürərsə, həbs oluna bilər". Bu barədə Gürcüstanın Baş naziri İrakli Kobaxidze keçirdiyi brifinqdə məlumat verib.

Hökumət başçısı bildirib ki, dekabrın 21-də S.Zurabişvili parlament seçkiləri təyin etmək niyyəti ilə müxalifət və QHT nümayəndələri ilə görüşüb. Onun bu təşəbbüsü Gürcüstan qanunlarının kobud şəkildə pozulması deməkdir və cinayət məsuliyyəti yaradır.

Baş nazirin sözlərinə görə, Gürcüstan qanunvericiliyinə görə parlament seçkiləri üç halda təyin edilə bilər. Mərkəzi Seçki Komissiyası və ya Konstitusiya Məhkəməsi əvvəlki seçkilərin nəticələrini ləğv etdikdə, parlamentin dördillik səlahiyyət müddəti başa çatdıqda və parlament hökumətə etimad göstərmədiyi halda təkrar parlament seçkiləri keçirilə bilər.

İ.Kobaxidze deyib ki, əgər prezident buna baxmayaraq, başqa səbəbə görə yeni parlament seçkiləri təyin etmək qərarına gəlsə, o, buna görə cinayət məsuliyyətinə cəlb olunacaq.

***Mübariz FEYİZLİ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Cəbrayıla 7-ci köç!

## Sakinlərin sayı 1096 oldu...

Keçmiş məcburi köçkünlərimizin Vətən həsrəti sona çatmaqdadır. Onlar öz doğma yurdlarına qayıdırlar. “Böyük Qayıdış” planı çərçivəsində işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri hər keçən gün sürətlənir. Bu gün öz sakinlərini yeni bir ab-hava ilə qarşılayan şəhərlərimizdən biri də Cəbrayıldır.

### Cəbrayıla vurulan maddi və mənəvi ziyan...

Dörd il bundan əvvəl 27 il işğalda olan Cəbrayıl şəhəri azadlığına qovuşdu. Cəbrayıl şəhəri və rayonu 1993-cü il avqustun 23-də işğal edilib. İşğal vaxtı Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları həcmində maddi ziyan dəyib, mənəvi ziyanı ölçmək isə mümkün deyil... Cəbrayıllı məcburi köçkünlər respublikamızın 58 rayonu üzrə 2 minədək yaşayış məntəqəsində, eləcə də qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdı. İşğala məruz qalarkən rayonun 52 min nəfər əhalisi olub. Cəbrayıldan Birinci Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olub. Rayonun 6 sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

1050 kvadratkilometri əhatə edən Cəbrayıl rayonunun ərazisi, o cümlədən 100-ə yaxın kənd, 72 ümumtəhsil məktəbi, 150 mədəniyyət ocağı, 132 tarixi abidə işğal vaxtı vəhşicəsinə talan edilib, dağıdılıb.

Cəbrayılda mədəniyyət, elm-təhsil, maarif mühiti kifayət qədər zəngin idi. Rayonda 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim çalışıb. Rayon Tarix-diyarşünaslıq muzeyində 20 mindən çox eksponat olub.

Qeyd edək ki, Cəbrayılın yaşayış məntəqəsi kimi tarixi 8-ci əsrə bağlanır. 1930-cu ildə inzibati mərkəzi olan Cəbrayıl rayonu yaradılıb və şəhəri də məhz həmin illərdə formalaşmağa başlayıb. Şəhərin ilk Baş planı 1984-cü ildə işlənilib. O zaman şəhərin ərazisi 258 ha, əhalinin sayı 5200 nəfər idi.

### Bütün güclər səfərbər olunub...

Azərbaycanın Ermənistan üzərində qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-mədəniyyət və dini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan yeraltı və yerüstü sərvətlərimizə qarşı olan vandallıq əməlləridir. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri həyata keçirilir, Azərbaycan öz ərazilərini bərpa edir. Ordumuz tərəfindən azad edilən Cəbrayıl şəhəri yeni dövrünü yaşıyır. Dağıdılmış əraziləri yenidən qurmaq böyük güc, potensial və zaman tələb edir. Ölkəmizdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və işğaldan azad edilən ərazilərdə yeni işıqlı həyata başlanılıb. Cəbrayılda çoxsaylı bərpa və quruculuq işləri görülüb və bu işlər yenə də sürətlə davam etməkdədir.





### Cəbrayıla qayıdış...

Xatırladaq ki, Cəbrayıl şəhərinə ilk köç prosesi 26 sentyabr 2024-cü il tarixində gerçəkləşmişdi. Bu mərhələdə 36 ailə olmaqla, 117 nəfər doğma torpağına qovuşdu. Cəbrayıla ikinci köç sentyabrın 28-i (41 ailə, 124 nəfər), üçüncü köç sentyabrın 30-u (40 ailə, 123 nəfər), dördüncü köç noyabrın 7-i (30 ailə, 150 nəfər), beşinci köç noyabrın 29-u (40 ailə, 200 nəfər), altıncı köç isə dekabrın 2-si (34 ailə, 129 nəfər) tarixlərində baş tutub.

### Daha 49 ailə yola salındı

Ötən gün isə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Cəbrayıl şəhərinə növbəti-yeddinci köç karvanı yola salınıb. Bu dəfə Cəbrayıla 49 ailə (253 nəfər) köçürülüb.

Beləliklə, Cəbrayıl şəhərinə köçürülən ailələrin ümumi sayı 270-ə (1096 nəfər) çatıb.

***Yeganə BAYRAMOVA***





## “Azercell”-dən Yeni il kampaniyası!

***Lider mobil operator “OPPO” və “Honor” cihazlarını əldə edən müştərilərə 3 ay boyunca 5 GB internet hədiyyə edir***

“Azercell” Yeni il ərəfəsində abunəçiləri üçün xüsusi kampaniya elan edir. Lider mobil operator “OPPO” və “Honor” cihazları əldə edən fakturasız xətt abunəçilərinə 3 ay boyunca 5 GB internet hədiyyə edir.

Kampaniya çərçivəsində müştərilər “Honor” və “OPPO” cihazlarını “Azercell Eksklüziv” və ya rəsmi diler mağazalarından ala bilərlər. Həmçinin “OPPO” cihazlarını “Kontakt Home” mağazalar şəbəkəsindən də əldə etmək mümkündür.

Kampaniya 229 AZN-dən başlayan cihazlara şamil olunur və 5 GB hədiyyə internet paketi 3 ay boyunca hər 30 gündən bir avtomatik qaydada yenilənir.

Kampaniya 10 yanvar 2025-ci il tarixinədək qüvvədədir.

Daha ətraflı məlumat üçün:
OPPO 2025 | Azercell
HONOR 2025 | Azercell

“Azercell Telekom” MMC bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir.


***İdman***

## Fərid Qayıbov: Özəl şirkətləri idmana daha çox cəlb etməliyik

Düşünürəm ki, özəl şirkətləri idmana daha çox cəlb etməliyik.

“Report”un məlumatına görə, bunu jurnalistlərə açıqlamasında gənclər və idman naziri Fərid Qayıbov deyib.

O, bununla bağlı Vergilər Nazirliyi ilə mütəmadi görüşlər keçirdiklərini bildirib:

“Məncə, böyük, özəl şirkətlərin idmana yatırım etməsi üçün onlara hansısa güzəşt olmalıdır. Hazırda var. Bunun bir az dəyişməsini istərdik. Biz təklif veririk və bunu əsaslandırmalıyıq. Düşünürəm ki, özəl şirkətləri idmana daha çox cəlb etməliyik. Kütləvi tədbirlər təşkil edirik. Burada iştirakçılar çox olur. Bəzi tədbirlərimizə özəl sponsorlar gəlmək istəyir”.

Nazir yarışlara az azarkeşlərin gəlməsinə də toxunub:

“Özümüz də çalışmalıyıq. Bizdə idman marketinqi yaxşı işləmir. Tədbirlər keçirəndə tamaşaçıların sayı az olur. Təəssüflər olsun ki, gəlmirlər. Dünya və Avropa çempionatı keçirilir, dünya ulduzları gəlir, amma biz fanatları görmürük. Bəzi ölkələrdə belə turnirlərə ailə üzvləri ilə birlikdə gəlirlər. Bu ənənənin ölkəmizdə də olmasını istəyirik. Ən yaxşı misal futboldur. “Qarabağ”ın avrokubok matçlarında stadion dolu olur. Amma çempionat matçlarına insanlar gəlmirlər. Deməli, onları düzgün dəvət etmirik. Bizdə də günah var. İnsanları dəvət etməyi bacarmalıyıq. Düşünürəm ki, idman marketinqini gücləndirməliyik.



Mütəxəssis yoxdursa, xaricdən dəvət etməliyik”.







## Üzgüçülərimiz beynəlxalq yarışda 22 medal qazanıblar

Azərbaycan üzgüçüləri 2024-cü ili uğurla başa vurublar.

Azərbaycan Üzgüçülük Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, milli komanda Estoniyanın Tartu şəhərində keçirilən Açıq Estoniya Qış çempionatına qatılıblar və çox yüksək nəticələr əldə ediblər. 15 idmançı ilə beynəlxalq turnirdə çıxış edən yığma ümumilikdə 22 medal qazanıb.

Azərbaycanla yanaşı, Estoniya, Latviya, Litva, Ukrayna, Finladiyadadan ümumilikdə 35 klubdan 285 idmançının mübarizə apardığı beynəlxalq turnirdə üzgüçülərimiz Vətənə 7 qızıl, 13 gümüş və 2 bürünc medalla dönüblər. İdmançılardan Süleyman İsmayılzadə (3 qızıl, 2 gümüş medal), Oqtay Hüseynov (2 qızıl, 2 gümüş medal), Ramil Vəlizadə (1 qızıl, 2 gümüş, 1 bürünc medal), Əbdürrəhman Rüstəmov (1 qızıl, 1 gümüş medal), Fatimə Alkərəmova (2 gümüş, 1 bürünc medal), Səid Həmidov (2 gümüş medal), Rəşad Alquliyev və Məryəm Cavadova (hər ikisi 1 gümüş ) medallar qazanıblar.

Süleyman İsmayılzadə isə 1500 metr məsafədə sərbəst üsulda 1-ci yerlə yanaşı, həm də Estoniya rekordunu da yeniləyib.

## İdman jurnalistləri arasında intellektual yarış keçirilib



Peşəkar Futbol Liqası (PFL) və “Misli”nin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilə həsr olunmuş idman jurnalistləri arasında intellektual yarış keçirilib.

PFL-dən AZƏRTAC-a verilən məlumata görə, 70-dən çox media nümayəndəsinin iştirak etdiyi turnir maraqlı və yaddaqalan alınıb. Oyunun əvvəlində xanım iştirakçılara Peşəkar Futbol Liqasının xüsusi hədiyyələri təqdim edilib. Yarışda komandalara müxtəlif dövrlərdə heyətində azərbaycanlı futbolçuların oynadığı əcnəbi klubların adları verilib. Tamamilə Azərbaycan futboluna həsr olunmuş suallar əsasında keçirilən yarışda sona qədər gərgin mübarizə gedib. Belə ki, çempion son turda müəyyənləşib. Yekunda “Volın” komandası qalib, “Fakel” ikinci, “Nürnberq” üçüncü olub.

Sonda “Volın” komandasına kubok, medallar və pul mükafatı təqdim edilib. İkinci və üçüncü yerin sahibləri isə pul mükafatı qazanıb.

## Allah rəhmət eləsin!

“Yeni Azərbaycan” qəzetinin əməkdaşları Mərkəzi Bankın mətbuat xidmətinin rəhbəri Namiq Əliyevə atası

**RAFİQ ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4800**
**Sifariş: 3007**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova